

# BAYAT

№ 10 (592)





***İslam SADİQ***

### *ÜÇ ADDIM MƏN GƏLİM*

Mənim ürəyimdə deməyə söz var,
Məndə də, səndə də gəlməyə üz var.
Aramızda dağ yox, dərə yox, düz var,
Üç addım mən gəlim,
Bir addım sən gəl!

Soruşma yolumuz kəsişmir niyə,
Sən orda bir dəm tut çaldığım neyə.
Qoy sevinim məni duyan var deyə,
Üç addım mən gəlim,
Bir addım sən gəl!

Zəhəri şərbət tək içənlərə bax,
O dumanlara bax, o çənlərə bax.
Keçilməz dağları keçənlərə bax,
Üç addım mən gəlim,
Bir addım sən gəl!

Yoxdumu qəlbinin bir güvən yeri,
Sevməmək olarmı yar sevən yeri?!
Sənə yaxın olsun qoy əvən yeri,
Üç addım mən gəlim,
Bir addım sən gəl!

Sağalmaz ha deyil yaramız axı,
Səndədi, məndədi çaramız axı.
Vur-tut dörd addımdı aramız axı,
Üç addım mən gəlim,
Bir addım sən gəl!

### *BAŞIN SAĞ OLSUN*

Düşmən sənin başına
Endirən dəyənəyi
Mən göydə tutmayınca,
Tutan kimi düşmənin
Üstünə atmayınca.

Düşmən mənim başıma
Endirən dəyənəyi
Sən göydə tutmayınca,
Tutan kimi düşmənin
Üstünə atmayınca.

Mənim başımdan sarı
Sənin başın sağ olsun.
Sənin başından sarı
Mənim başım sağ olsun.

Mənim başımı yeyən
Düşmən daşı sağ olsun.
Sənin başını yeyən
Düşmən daşı sağ olsun.

### *YÜKÜMÜ*

***Rus gömrükçülərinin yaşatdığı duyğular***

Çantaları düzdü biri,
Bəlkə min yol süzdü biri.
Dodağını büzdü biri,
Çox yoxladı az yükümü.

Sevincimə boyanmadı,
Kədərimi sayammadı.
Acığımı duyammadı,
Çəkəmmədi düz yükümü.

Beynim dolu ağıl keçdi,
Sinəm dolu nağıl keçdi.
Nəyim vardı mağıl keçdi,
Tapammadı yüz yükümü.

Nəyim varsa, yerə tökdü,
Köhnə palan kimi sökdü.
Ürəyim söz dolu yükdü,
Görəmmədi söz yükümü.

### *GÜLLƏR VƏ QIZLAR*

Hər gülün duruşu bir qıza bənzər,
Hər gülün baxışı-bir qız baxışı.
Qızlar yaxasına gül düzüb gəzər,
Kim vurur güllərə min bir naxışı?!

Bir gül yarpağıdı hər qız yanağı,
Bir oğlan baxışı qonar üzünə.
O gündən başlayar qızın sınağı,
Bir az da qadağa qoyar özünə.

Qız adı-gül adı qarışan kimi,
Qarışıb gül ətri, qız ətri yenə.
Min gülün içində sayrışan kimi,
Bilinir hər qızın öz ətri yenə.

Baxdımı güzgüdə şəsti-bəstinə,
Qaynayan qız qanı-qızılgül qanı.
Qonub bülbül kimi tikan üstünə,
Göynəyən ürəyin sevgi dərmanı.

Qızılgül bağıdı sanki sağ-solu,
Hər qızın nəfəsi çəmən havası.
Duysan balla dolu, şirəylə dolu
Hər qızın ürəyi qönçə yuvası.

Bir gül dodağıdı hər qız dodağı,
Hansı dodaq üçün bəslənir görən?!
Qoynunda nar yatan ucqar budağın
Bəxtəvər olacaq narını dərən.

Uzanar, uzanar iyini duyub,
Qönçə yuvasına arı xortumu.
Bəlkə də ordadı dirilik suyu,
Ölüyə can verər bircə qurtumu.

Arı dodağıdı hər qız dodağı,
Əl vurma, əl vurma, qanla doludu.
Arı ayağıdı hər qız ayağı,
Südlü əmcək kimi şanla doludu.

İçində min dad var bəlkə hər dadın,
Şirinlə acı da bəlkə yarıdı.
Arısız güldüsə kişisiz qadın,
Qadınsız kişi də gülsüz arıdı.

Təzə çiçək açmış bir güldü hər qız,
Hələ çox gözlərdə qibtə olacaq.
Atası evində vergüldü hər qız,
Bir gün ər evində nöqtə olacaq.

### *VAXTI VAR*

Bu dünyanın xeyir vaxtı,
Bu dünyanın şər vaxtı var.
Gah görərsən vaxtı yoxdu,
Gah görərsən hər vaxtı var.

Qışı atma yaz olanda,
Toya başla yas olanda.
Bircə tükdən asılanda,
Taleyin də zər vaxtı var.

Naşı olsan qınağında,
Uduzarsan sınağında.
Çiçək kimi yanağın da
Təzə vaxtı, tər vaxtı var.

Sına bilər sim, əl vurma,
Bəmdən düşər bəm, əl vurma.
Hər bağçanın həm "əl vurma",
Həm "nə desən dər" vaxtı var.

### *BULAMA, NOLAR*

Neyləyirsən elə, bu mən, bu da sən,
Götür duyğu-duyğu məni buda sən.
Bircə bu sevgimi vermə bada sən,
And verirəm haqqa, salama, nolar!

Yandırma onsuz da yanan arını,
Can görüb cananı sanan arını.
Gül bilib üstünə qonan arını
Sən gicitkən olub dalama, nolar!

Baxdım, baxışımı gözündə saxla,
Sözümü ən gizli sözündə saxla.
Mən verən kösöyü özündə saxla,
Gedib yad könlündə qalama, nolar!

Çayı çaya cala calayırsansa,
Dərd əkmişəm, sula sulayırsansa.
Öz başına dola dolayırsansa,
Məni dağa-daşa dolama, nolar!

Üzünə güzgüdü yaddaş yaddaşın,
Üstündə adım var yoxsa o daşın.
Qoy olsun qanlısı o daş bu başın,
Başqasını qana bulama, nolar!

### *SIĞALLA*

Min sınağa çəkib bəlkə hax məni,
Sınayırsan belə sına, bax məni.
Oda salıb yandır məni, yax məni,
Üstündən də sərin-sərin sığalla.

Bir gül gördüm, yaman gəldi xoşuma,
Unutmaram min qar yağsa huşuma.
Üzdən-üzdən səp toxumu bu şuma,
Çək tapanı, dərin-dərin sığalla.

Bircə hovur saxla görüm közləri,
Qaysaq tutsun qoy yaramın gözləri.
Tök başımdan acı-acı sözləri,
Sonra özün şirin-şirin sığalla.

### *BƏNZƏDİB*

Minnətin olmasın aya da sənin,
Nə qohuma sənin, nə yada sənin.
Bənzərin yoxdusa dünyada sənin,
Bəs kim səni başqa qıza bənzədib?

Bilmir kimdən keçib şətəl, ayırıb,
Qalıb baxa-baxa mətəl, ayırıb.
Şəvə saçlarından üç tel ayırıb,
Köksünü üçtelli saza bənzədib.

Kükrəyən göydümü, yoxsa sinədi,
Ayın da, günün də üzü sənədi.
Bu boyda sevgini duymayıb nədi,
Kim səni sevgisi aza bənzədib?

Buluddu, ya göylər ağ məxmər geyib,
Dumandı, ya dərə, dağ məxmər geyib.
Hansı naşı sənə ağ mərmər deyib,
Bu odu, alovu buza bənzədib?

### *APARDI*

Acısı ağzımda bal dadan gözəl,
Gözləri gözümü aldadan gözəl,
Baxa-baxa qalıb daldadan gözəl,
Məni vurğun kimi vurub apardı.

Öyrətdim uzaqdan əl eləməyə,
Gedəndə qaytarıb "gəl" eləməyə.
Özü çağırmışdı gül iyləməyə,
Gül açan budağı qırıb apardı.

Dumanla bürüdü üzünü bəlkə,
Yuxuda görürdüm özünü bəlkə.
Yazmışdı sonuncu sözünü bəlkə,
Sonuncu varağı cırıb apardı.

### *YIĞIM YENƏ*

Dəni məndən istə, dənə göndər sən,
Min dəfə göndərdin, yenə göndər sən.
Məni aya göndər, günə göndər sən,
Könlümə ay yığım, gün yığım yenə.

Yaxşının ovcuna götür yaman qoy,
Umduğunu qıyma, yansın uman qoy.
Qaşların üstünə çöksün duman qoy,
Kirpiklər üstünə çən yığım yenə.

Bəstə tanımıram dil bəstəsi tək,
Xəstə tanımıram gül xəstəsi tək.
Əlimdə tutduğum gül dəstəsi tək,
Vur dağıt könlümü, mən yığım yenə.